## MUSİQİ SƏNƏTİ

**Əhliman Rəhimov**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

# Şirvan aşıq mühitinin ustadlarından Aşıq Mirzə Bilalın yaradıcılığı və sənətkarlıq xüsusiyyətləri

**Xülasə:** Məqalədə Şirvan aşıq sənətinin xarakterik xüsusiyyətlərindən və bu aşıq mühitinin ustad sənətkarlarının yaradıcılıq irsindən bəhs edilir. Xüsusilə, bir çox şagird yetişdirmiş Aşıq Mirzə Bilalın həyatına, yaradıcılığına və sənətkarlıq xüsusiyyətlərinə diqqət yetirilir. Müasir ustad Şirvan aşıqlarının, demək olar ki, hamısının ustadı sayılan Aşıq Bilalın öz ustadı Aşıq İbrahim və məşhur xanəndə Mirzə Məmmədhəsənlə sənət əlaqələrinə toxunulur. Mirzə Bilalın ifaçılıq mədəniyyətinə, məclisdə oturub-durmaq, dinləyicilərə qarşı diqqətli olmaq kimi ədəb-ərkan qayda-qanunlarına əməl etməsinə diqqət yetirilir. Onun dastan ifaçılığına yaradıcı münasibətindən danışılır. Dastan ifaçılığı mədəniyyətində Mirzə Bilalın sənətkarlıq səviyyəsinin xüsusiyyətlərinə aydınlıq gətirilir. Onun yaradıcılıq irsinin öyrənilməsi zərurəti əsaslandırılır.

**Açar sözlər:** Azərbaycan aşıq sənəti, Şirvan aşıq mühiti, Aşıq Mirzə Bilal, ifaçılıq mədəniyyəti, saz.



Aşıq sənəti əsrlər boyu Azərbaycan xalqının ruhunda, qəlbində, mənəvi aləmində, dünyagörüşündə özünə möhkəm yer tutmuş, saz-söz sənətimizə yeni-yeni musiqi əlvanlığı və poetik boyalar qazandırmışdır. Əvəzsiz xidmətləri ilə adları hörmətlə anılan, adları mədəniyyət tariximizə qızıl hərflərlə həkk olunmuş ustad aşıqlarımızın bu xəzinəyə bəxş etdikləri sənət inciləri həmişə xalqımızın diqqətini özünə cəlb etmişdir. Bununla belə Azərbaycan aşıq sənətinin böyük bir qolunu təşkil edən, öz səciyyəvi çalğı-oxu üslubu olan Şirvan aşıq mühitinin nümayəndələrinin, o cümlədən Aşıq Mirzə Bilalın əsərləri bir sıra səbəblər üzündən, XX əsrin 30-cu illərində çap olunmuş kitablarda, toplularda bir o qədər yer almamış, tədqiqatlardan kənarda qalmışdır. Nəticədə Şirvan aşıqlarının böyük bir qisminin əsərləri itib-batmış, hətta yaddaşlardan da silinmişdir. Yalnız 1940-

1950-ci illərdə çap olunmuş kitab və toplulara bu mühitdə yaşayıb-yaradan bir neçə sənətkarın şeirlərindən seçmələr daxil edilmişdir.

Zəngin ifa repertuarına, sənət və yaradıcılıq imkanlarına malik olan Şirvan aşıq sənəti müəyyən fərqlər səbəbindən qərb aşıq sənəti ilə müqayisədə fərqli görünmüşdür ki, bu da XX əsr Azərbaycan folklorşünaslığında bəzən Şirvan aşıq sənətinə birmənalı olmayan münasibət yaratmışdır. Bəzi ustad aşıqlar, xüsusilə isə müasir Şirvan aşıqlarının ustadı sayılan, yaradıcılığına sənət biliciləri, eləcə də qüdrətli aşıqlar tərəfindən yüksək qiymət verilən Aşıq Mirzə Bilal haqqında isə XX əsrin 60-cı illərinə kimi, repressiya qurbanı olduğu üçün heç danışılmamışdır. Halbuki, mənsub olduğu mədəni mühitinin fövqündə dayanan, klassik muğam, rəqs və klassik poeziya ənənələrindən də bəhrələnərək, öz varlığını davam etdirən sənətkar kimi bir çox keyfiyyətlərinə görə digər mühitlərin aşığından fərqlənən Şirvan aşıq mühitinin bu görkəmli nümayəndəsi özündən sonra zəngin yaradıcılıq irsi qoymuşdur.

Aşıq Mirzə Bilal Mustafa oğlu Mikayılov 1872-ci il mart ayının 12-də Şirvan qəzası Ağsu rayonunun Qəşəd kəndində anadan olmuşdur. Əvvəlcə Molla Xasdan, daha sonra isə maarifçi Seyid Əzim Şirvanidən təhsil alaraq həm ərəb-fars dillərini öyrənmiş, həm də klassik poeziyaya dərindən bələd olmuşdur. Şamaxı ədəbi mühiti və eləcə də "Beytül-səfa" və mesenat Mahmud Ağanın musiqi-şer məclisi Mirzə Bilalın yaradıcılığında əhəmiyyətli rol oynamışdır. Azərbaycan Cümhuriyyəti dövründə (1918-1920) Şamaxı qəzasının əmniyyət müdiri işləyən Mirzə Bilal həm bu səbəbdən, həm də yaradıcılığı boyu sovet rejimini heç bir zaman təbliğ etmədiyi üçün repressiyaya məruz qalmış, yaradıcılığının – şeir və dastanlarının böyük bir hissəsi məhv edilmişdir.1937-ci il iyun ayının 17-də həbs edilən sənətkar həmin il noyabr ayının 26-dan 27-nə keçən gecə "xalq düşməni" ittihamı ilə güllələnmiş, ölümündən 18 il sonra isə bəraət almışdır.

Tarixi mənbələrə və ustad sənətkarların məclislərində iştirak etmiş ağsaqqalların xatirələrinə istinad edən Seyfəddin Qəniyev yazır ki, Şirvan aşıq sənətinin ən parlaq dövrü XIX əsr və XX əsrin birinci yarısına qədər olmuşdur. Belə ki, bu dövrdə Şirvanda neçə-neçə qüdrətli sənətkarlar yetişmişdir. Aşıq Baba Rəxşan, Aşıq Mürsəl Babaş oğlu, Aşıq Soltan, Aşıq Qənimət, Aşıq Cəlal, Aşıq Daşdəmir, Aşıq Zeynalabdin, Aşıq Bilal, Aşıq Şamil, Aşıq Abbas və başqalarının Şirvan aşıq sənətinin formalaşması, kamilləşməsi, ad-san qazanmasında böyük xidmətləri olmuşdur. Bu sənətkarların əldə etdiyimiz şeirlərində yaşadıqları dövrün ab-havası ilə yanaşı, xalqın adət-ənənəsi, həyat tərzi, yurdumuzun füsunkar gözəllikləri öz poetik ifadəsini tapa bilmişdir. Bu istedadlar həm də neçə-neçə dastan qoşmuş, saz havaları bəstələmişlər. İndiyə kimi çap olunmayan "Mustafa və Sənəm xanım", "Barıdday Soltan və Kövsər", "Küçə Rza", "Koroğlunun Şirvan səfəri", "Aşıq Bilal və Naburlu Badam" və s.

kimi dastanlar Şirvan sənətkarları haqqında çox söz deyir. Şirvan aşıqlarının bəslədikləri, yaratdıqları saz havalarının sayı iyirmidən artıqdır. "Peşrev", "Şəşəngi", "Şirvan şikəstəsi", "Əlicadi", "Sarıtorpaq şikəstə", "Qocaman şikəstəsi", "Qari qafiyə", "Güllü qafiyə", "Qobustanı", "Çığdançıxmaz", "Ordubadi", "Gəraylı" və s. aşıq mahnıları əsrlərlə Şirvan məclislərinin bəzəyi olmuşdur (4, s.5).

Şirvan aşıqlarının Şirvan aşıq mühitinin özəlliklərini qoruya bilmələri və bu irsin davamçıları olan aşıqların yeni nəsli haqqında ustad sənətkarlar adətən yekdil fikirdə olmuşlar. Aşıq Əhməd bu barədə belə fikirdə idi ki, "biz – mən, Aşıq barat, Aşıq Şakir, Aşıq Məmmədağa, Aşıq Pənah öz vəzifəmizə – ustadlarımız Aşıq Bilal, Aşıq İbrahim, Aşıq Şamil, Aşıq Abbasın bizə olan tövsiyə və vəsiyyətlərinə can-başla əməl etdik" (2, s.86).

Aşıq Bilal, Aşıq Şamil, Aşıq Əhməd, Aşıq Şakir, Aşıq Qurbanxan, Aşıq Bəylər, Aşıq Pənah, Aşıq Hacalı, Aşıq Ağalar kimi öz sələflərinin klassik sənət irsinə sadiq olmaqla yanaşı bu ənənələri daha da inkişaf etdirən Şirvan aşıqları da aşıq şeirində az və ya çox yazılı üslubu olan, qoşma, gəraylı yazıb sənəti zinətləndirən sənətkarlardır. Bu sənətkarların hər birinin adının arxasında qüdrətli ifaçılıq məktəbi dayandığı kimi, hər birinin də özünəməxsus repertuarı, üslubu və ya yaradıcılıq ənənəsi vardır. Bu ustad aşıqların ənənələri dünən olduğu kimi, bu gün də yaşamaqdadır (10, s.39-42).

Şirvan aşıqlarının ustadı sayılan Aşıq Bilal poeziyasının, sənətkarlığının digər cəhətləri ilə yanaşı, daha bir qüvvətli tərəfi onun deyişmələrində üzə çıxır. O, Şirvanın məşhur sənətkarları ilə deyişmiş, sonradan bu deyişmələr xalqın yaddaşına həkk olunmuşdur. M.Mürsəlovun tədqiqatlarından öyrənirik ki, o, ustad aşıqlardan Qubalı Bəşir, Aşıq Hüseyn Bozalqanlı, Şamaxılı Sənəm, Nabırlı Badam və başqa sənətkarlarla deyişmişdir. Bu deyişmələrdə Aşıq Bilal böyük ustalıq nümayiş etdirmiş, sənətkarlığı və xalq poeziyasını yaxşı bilməsi ilə diqqəti cəlb etmişdir (9, s.160). Məsələn, ilk dəfə Aşıq Camalın yanında xanəndəlik etmiş, sonralar isə el məclislərində aşıq kimi çıxış etmiş Aşıq Bilalla Badamın deyişməsinə tünd boyalar və zarafat ruhu hakimdir:

Aşıq Bilal:
Təkkədən fətir mənə
Al gətir, yetir mənə,
Get cənnətə, ay xanım,
Bir xəbər gətir mənə.
Badam:
Gələn karvan Cardandı,
Yükü heyva, nardandı.
Aşıq, məni başa sal,
Cənnət yolu hardandı? (5, s.208).

Deyişmədə iştirak edən sənətkar üçün hazırcavablıq, bədahətən söz demək qabiliyyəti, itidüşüncəlilik əsas şərtlərdən biridir. Aşıq Bilal bu keyfiyyətləri ilə də seçilən sənətkarlardan olmuşdur.

Təbii ki, aşıq musiqiləri ilə yanaşı muğamı gözəl bilmək ənənəsi Şirvan aşıq mühitində yüz illərlə davam etmişdir. Müasir ustad Şirvan aşıqlarının, demək olar ki, hamısının ustadı sayılan aşıq Bilal, öz ustadı Aşıq İbrahimin məsləhətindən sonra, 35 ildən artıq bir müddətdə bənzərsiz xanəndə kimi bütün Qafqazda, İranda məşhur olmuş Mirzə Məmmədhəsənin yanına gəlir. Məclislərində iştirak etdiyi, oxumalarından doymadığı Mirzəyə ürəyindəkiləri açıqlayır. Mirzə bir neçə dəfə cavan aşığı dinləmişdi. Bəyənmişdi onun səsini, avazını... Həmin vaxtdan Aşıq Bilal Mirzə Məmmədhəsənlə məclislərə gedir. Ustad ona muğamların bütün yol-yolacağını vaxtında öyrədir. Ustadının məharətlə oxuduğu “Şur”, “Rast”, “Hümayun”, “Segah”, “Şüştər” muğamları ilə ona imtahan verib, halallıq alır. Və həmin vaxtdan el məclislərinə həm aşıq, həm də xanəndə kimi qədəm qoyur Aşıq Mirzə Bilal... Mənbələrdən, xatirələrdən bir daha bəlli olur ki, Mirzə Bilalın əvəzsiz bir xanəndə kimi bütün muğamları ustalıqla ifa etdiyinin şahidi olan sənətkarlar çox zaman ondan ehtiyyat da edirlərmiş... (6, s.33).

Çağdaş Şirvan aşıqlarının hamısı aşıq musiqisi ilə muğamın sintezi məsələsində ustadlar-ustadı Aşıq Bilal irsini daim yaşatmışlar. Onların bir çoxu əvvəllər öz ustadlarının yanında xanəndəlik etmişlər. K.Axundova “Aşıq Şamil Piriyev” adlı əsərində yazır ki, “...muğamın bir çox incəliklərinə yiyələnmiş Ş.Piriyev də müəyyən müddət öz ustadı Aşıq Bilalın yanında xanəndəlik etmişdir. Ustadla birgə çıxışları gələcək aşığın Şirvan toylarına xas olan adət-ənənələri haqqında təsəvvürünü genişləndirmiş (1, s.6), bir çox dastanları və mahnıları mənimsəməyə geniş imkan yaratmışdır.

Aşıq Bilalın Şirvan bülbülü Mirzə Məmmədhəsənlə dostluğu, Mahmud ağanın musiqi məclisində vaxtaşırı iştirakı uzun illər bir ansamblda çalışmış instrumental ifaçılığın zirvələrindən biri, balabançı Əli Kalvalının sənətini də püxtələşdirmişdir (3, s.13). Əli Kərimov aşıqlardan ən çox Aşıq Bilalla yoldaşlıq etmişdir. Bu illər ərzində dostlar bir-birindən çox öyrənmiş və Şirvan aşıq sənətini qırx il ərzində ən uca zirvələrə qaldırmışlar. Demək olar ki, bu iki dahi sənətkarın 1900-1937-ci illər ərzində Şirvan aşıq mühiti üçün etdikləri – klassik saz havalarının yenidən canlanması, qədim dastanların hamısının repertuarlarına salınması, saz havalarına yeni nəfəslər əlavə edilməsi, XVIII-XIX əsrlərdə yaşamış aşıqların ifası, nəticədə Aşıq Qurbanxan, Aşıq Abbas, Aşıq Ağalar, Aşıq Soltan, Aşıq Əhməd, Aşıq Şakir, Aşıq Şamil, Aşıq Məmmədağa kimi aşıqların; Həsrət Hüseynov, İzzətalı Zülfüqarov, Ağasəf Seyidov, Fikrət Əliyev kimi balabançalanların yetişməsini, heç bir ixtira, heç bir xidmətlə ölçmək mümkün deyildir. Aşıq Bilalla Əli Kərimovun Azərbaycan

aşıqlarının birinci qurultayında iştirakı və çıxışları onları Azərbaycanın bütün qüdrətli sənətkarları arasında daha da məşhurlaşdırmışdır. Əli Kərimovun ifa etdiyi həmin havaların bir qisminin müəllifi Mirzə Bilal olmuşdur ki, həmin havalardan biri də "Alçagülüdür". Deyilənə görə, "bu havacatı Aşıq Bilal ustadı Mirzə Məmmədhəsəndən öyrənmişdir" (6, s.149-150).

Şirvan mühitində saz-söz məclislərinin formalaşma istiqamətində tək saz ifaçılığından ansambl ifaçılığına keçidin səbəbləri ilk növbədə Şirvan mədəni mühitindəki, xüsusən, Şamaxıdakı sənət ab-havasının kompleks yeniləşməsi ilə bağlı olmuşdur. Bir çox hallarda sarayın tənzimlədiyi mədəni mühit Şamaxıda şeir məclisləri, muğam ifaçılığı kimi aşıq sənətinə də öz təsirini diqtə edirdi. Bu təsir və faydalanma bazasında kəndlərdə, el-obada fərdi fəaliyyət göstərən aşıqların da bu mədəni kompleksə cəlb olunması müşahidə edilir: Şirvan aşıqlarının böyük əksəriyyəti Şamaxı mühitinə yaxın yerləşməklə bu qaynar sənət ocağında özlərinin istedad və peşəkarlıqlarını nümayiş etdirə bilirdilər. Təbii ki, şəhər ədəbi mühitinə qovuşma, saray dəbdəbəsi, çoxrəngliliyi ilk baxışda sadə təsir bağışlayan tək saz və solo ifaya da təsirsiz ötüşməmişdir.

Mütəxəssislərin fikrincə, ansambl ifaçılığına keçid zamanı sazın üstünlüyünü qorumağa çalışan aşıq saray havacatını, mürəkkəb kompozisiyaları ifa edərkən istər-istəməz kütləvi-kollektiv səsin quruluşuna, təntənəsinə güzəştə getdi. Lakin bu güzəşt heç də bütün havaların ifasında özünü göstərmirdi. Sazın incə, təkrarsız səsinə köklənən və aşıqların aparıcı, ifaçılığı ilə təqdim olunan havalar hələ uzun zaman qorunub saxlanmışdır. Lakin Şirvan aşığının saz ifasında itirdikləri oxuma, melodiya incəliyi, kövrəkliyi, ritmin saz və havacatla harmoniyasında üstün keyfiyyətlər kimi meydana çıxdı. Buradakı ritm bolluğu və döyüşkən melodik kanonlar hər çalğı alətinin səslənməsi şəraitində daha qabarıq təqdim olunur. Aşıq ansambllarında "yançı aşığın" – xanəndənin də yer alması meydan tamaşasına, əyləncəyə söykənən Şirvan məclislərinin ənənəvi strukturundan irəli gəlir. Tamaşaçıların tərkibinə görə yekcins olmayan belə məclislərdə tələb və təklif də nəzərə alınır, aşıq sənəti ilə muğamın, aşıqla xanəndənin yarışması sənət mübarizəsi təsiri bağışlayırdı (8, s.104-105).

Ötən əsrin 50-ci illərindən sonra Şirvan aşıq mühitinin əhatə etdiyi bir çox ərazilərində – Quba, Xaçmaz, Bakı, Göyçay, Ucar, Zərdab, İsmayıllı, Qəbələ, Ağsu, Kürdəmir, Sabirabad, Salyan, Lənkəran, Cəlilabad, Şamaxı, Qobustan, Hacıqabul, Əli-Bayramlı və s. bölgələrində sənətə qədəm qoyan insanlara klassik saz havaları, sənət ənənələri, dastanların mənimsədilməsində vaxtilə Dədə Bilaldan dərs almış şagirdləri – Aşıq Ağalar Aşıq Şamil, Aşıq Abbas, Aşıq Qurbanxanın əvəzsiz xidmətləri olmuşdur. Sazın və sözün böyük ustadları sayılan həmin sənətkarların səyi nəticəsində Şirvan aşıq mühitinin qızıl dövrlərindən sayılan bu illərdə yaşayıb-yaradanlar – Aşıq Abdul, Aşıq Bəylər, Aşıq Barat, Aşıq Soltanmurad, Aşıq Əhməd, Aşıq Baba, Aşıq Kamil, Aşıq

Pənah, Aşıq Cəlil, Aşıq Fərhad, Aşıq Şakir, Aşıq Məmmədağa, Aşıq Şərbət, Aşıq Xanmusa, Aşıq Xanış, Aşıq Mirzə, Aşıq Əzizxan, Aşıq Mahmud, Aşıq Rza və başqaları təkcə Azərbaycanda deyil, keçmiş Sovetlər Birliyinin bir çox region və şəhərlərində sevilmiş, bəyənilmiş, pərəstişkarlar qazanmışlar (7, s.3-4).

Hər biri, belə demək mümkünsə, ayrıca məktəb yaratmış ustadlar öz yaradıcılıqlarında Azərbaycan aşıq sənətinin ümumi xüsusiyyətlərini saxlamaqla yanaşı, bəzi məhəlli özəlliklərə də malikdir. Aşıq Dostu Şirvani, Saleh Şirvani, Aşıq İslam, Aşıq İsi, Aşıq İbrahim, Aşıq Oruc, Aşıq Şamil, Aşıq Mirzə Bilal, Cəyirli Aşıq Abbas, Aşıq Şakir və b. qüdrətli sənət məktəbi yaratmış və bu məktəblərdə onlarla şagird sazın-sözün, ulu aşıq sənətinin sirlərinə dərindən bələd olmuşdur.

Tək sazdan saz-balaban, saz-balaban-qaval, saz-balaban-qaval-qoşa nağara, nəhayət, ansambl formasına doğru inkişafda saz ifaçılığı müəyyən itkilərlə üzləşsə də, dastan ifaçılığında, xüsusən, nağılın, “yurdun” söyləməsində lirik lövhələrin, təqdimat dinamikasının artması, bu zaman “yançı aşıq”la deyişmələr meydan tamaşası ənənələrinin məhz Şirvan aşıqları tərəfindən yarandığını təsdiq edir (8, s.101-102). Şirvan aşıqlığının ən ümumi səciyyəvi cəhəti, onun muğam sənəti ilə optimal sintezidir. Xanəndə sənətindəki tar, kaman, qaval üçlüyü saz, balaban, nağara üçlüyü şəklində özünü oxşar strukturda göstərir ki, bu aşıq ansamblının minimum tərkibidir. Bu mənada Aşıq Mirzə Bilal onlarla xanəndə də yetişdirmişdir. Mirzə Tağı, Nazim Talıb oğlu, Musa Sadiq oğlu, Məmməd Qasım oğlu, Babaş Qasım oğlu, Pirverdi Ağaşirin oğlu, Nadir Dadaş oğlu, Şirindil Muğbil oğlu və başqaları xanəndə olsalar da, Aşıq Mirzə Bilal repertuarını yerli-yerində bilən, təbliğ edən, yaşadan ustadlar olmuşlar (7, s.6-7). Bir sözlə, qırx ildən artıq el məclislərində meydan sulayan, deyişən, qıfılbəndlər açan, dastan yaradan qüdrətli sənətkar Aşıq Bilalın neçə-neçə şagirdi olmuşdur.

Bəllidir ki, Şirvan aşıq mühitinin özəlliklərindən biri də, aşığın məclisi ansamblla – aşıq dəstəsi (balabançı, dəmkeş, xanəndə, nağara, qoşa nağara) ilə idarə etməsidir. İllərlə çiyin-çiyinə çalışan ansambl üzvlərinin hamısı Aşıq Bilaldan çox şeylər öyrəndikləri kimi, məclisdə oturub-durmaq, dinləyicilərə qarşı diqqətli olmaq, bir sözlə, ədəb-ərkan qayda-qanunlarına da kamil yiyələnmişlər. Aşıq Bilalın bir ayaq tərpətməsi, bir çəp baxışı, bir baş hərəkəti, bir mizrab tərpətməsi kamil dirijorlardan da artıq iş görə bilirdi. Ona görə də ansambl bütün məclis boyu çox diqqətlə ustadı izləyirdi. Seyfəddin Qəniyev yazır ki, Aşıq Bilalın ansamblında çıxış edib kamil sənətkar dərəcəsinə yüksəlmiş insanların hamısının adını dəqiqləşdirə bilməsək də bir qrupu məlumdur: balaban-dəmkeşlər – kalvalı Əli, qonaqkəndli Cənnətalı, şamaxılı Ağababa, Musa, İbadulla; nağaraçılar – dədəgünəşli Ağaşıxalı, ağsulu Tapdıq,

İsmixan; xanəndələr – Çopur (Sarənc) Zeynal, ağdərəli Qurban, çimili Həsənbala, şamlı Xanbala, cəyirli Abbas, dədəgünəşli Maqsud, oğlu Ağalar, tağlabiyanlı Şamil, salyanlı Qurbanxan və başqaları (6, s.105-106). Ümumiyyətlə, Aşıq Bilalın sənət dostları və şagirdlərinin sayı yüz nəfərdən artıq olmuşdur ki, onlardan biri də Aşıq Şamildir. “Aşıq Şamil Piriyev” adlı əsərində yeri gəldikcə Şirvan aşıq mühitindən, onun spesifik cəhətlərindən, saz havacatlarının rəngarəngliyi və xüsusiyyətlərindən də söz açmış tədqiqatçı Kamilə Axundova Şirvanın tanınmış aşığı Aşıq Şamilin kamil sənətkar kimi yetişməsində, saz-söz yolacağına bələd olmasında ustadı Aşıq Bilalın xüsusi rol oynadığını da qeyd edir. Əsərdə söylənən bir çox fikirlər həm də Aşıq Bilal sənəti, repertuarı, haqqında çox mətləblərə işıq salır. Tədqiqatçı yazır ki, bu ustad-şagird münasibəti Aşıq Şamilə “bir çox dastanları və mahnıları mənimsəməyə geniş imkan yaratdı. Aşıq Şamil Piriyev “Qurbani”, “Abbas-Gülgəz”, “Şah İsmayıl”, “Xəstə Qasım”, “Əsli-Kərəm”, “Dilsuz-Xəzangül”, “Əmrah”, “Tahir-Zöhrə”, “Mahmud-Nigar”, “Küçə Rza” dastanlarını Aşıq Bilalın zəhməti sayəsində yadda saxlayıb, ömrü boyu ifa etmişdir. Bu dastanların bəzilərini Azərbaycan dastanlarının, sözün tam mənasında müstəqil, orijinal variantları hesab etmək olar” (1, s.6).

Şagirdləri və sənət yoldaşları da təsdiqləyirlər ki, XIX əsrdə Şirvanda yaşamış sənətkarların bir çoxunun şeirləri, şəbədələri, habelə, həmin dövrdə oxunan dastan-nağıllar, əhvalatlar, ifa olunan saz havaları XX əsrə ustad Aşıq Bilalın repertuarı ilə çatdırılmışdır. Ustad aşıq 1930-cu illərə kimi bütün bildiklərini yerli-yerində sənət həmkarları və şagirdlərinə mənimsətmişdir. Cəsarətlə demək olar ki, bugünkü Şirvan aşıq mühitinin hər bir nümayəndəsinin (şəxsi yaradıcılıqları istisna edilərsə) repertuarı Aşıq Bilalın qoyub-getdiyi irsdir, əmanətdir. Deməli, Aşıq Bilal həm də bugünkü aşıqların ustadıdır. Şirvan mühitində bir ifadə indi də işlədilir ki, Şirvan aşıq mühiti üçün xarakterik olan klassik dastanlar, saz havaları ilə əlaqədar mübahisə düşərsə, sənətkar öz həmkarına deyir: “Qardaş, ustadım rəhmətlik Aşıq Abbas Mirzə Bilaldan necə öyrənibsə, bizi də elə öyrədib” və ya “oxuduğum hava Aşıq Bilal oxuyan havadır” (6, s.106).

Aşığın dastan repertuarından bəhs edilən mənbələrdə, onun şagirdləri, doğmaları və sənətinin pərəstişkarlarının dediklərindən bəlli olur ki, Aşıq Bilal bildiyi əlliyə yaxın dastanı nə az, nə çox, düz qırx il Şirvan məclislərində yerli-yataqlı ifa etmişdir. Mənbələrdən öyrənirik ki, Bilalın söylədiyi dastan onun ifasında tamamilə başqalaşardı. Ona görə ki, o, həmin dastanın ifaçısı olmaqla yanaşı, onu tezliklə özününküləşdirə bilirdi. Bunun üçün aşığın əvəzsiz söz imkanı və nəqletmə bacarığı olmuşdur. Klassik Azərbaycan şairlərinin irsinə dərindən bələd olan Bilal Şirvanın ustad aşıqlarının şeirlərini, söylədikləri dastanları arayıb-axtarır və onları böyük bir təşnəliklə öyrənirdi. Ona görə ki,

müxtəlif bölgələrə bəzən həftə boyu dalbadal toya gedən Mirzə Bilal təzə söz oxumaqdan xüsusi zövq aldığı kimi, dədə sənətkarlardan öyrəndiyi havacatları şövqlə oxumaqla məclisdəkilərin marağını maraq qatar, ovqatına yeni ovqat bəxş edərdi. Məclisin belə bir ahəngi Aşıq Bilalı daşdırar, coşdurardı. Bir də xəbər tutardı ki, gecəyarı çoxdan keçib, xoruzun ilk banına isə bir şey qalmayıb. Hamı dastanı (hərçənd ki, ona dastan yox, Aşıq Bilalın sözü, səsi, əlavələri, hərəkətləri, oyunu, çalğısı ilə bəzədilmiş, cilalanmış bir səhnə əsəri demək doğru olardı) sona qədər dinləməyə çalışırdı (6, s.143).

Şirvan regionunu gəzib-dolaşaraq, səfərləri müddətində Bilal repertuarında oxunan dastanların demək olar ki, çoxunu toplayan, bəzilərindən müəyyən parçaları, bir qrupunun isə sadəcə adını dəqiqləşdirən tədqiqatçı-alim Seyfəddin Qəniyev Aşıq Mirzə Bilalın vaxtilə ifa etdiyi dastanları dörd qrupa ayırmağı məqsədəuyğun hesab edir və onu da xatırladır ki, bu bölgü ümumən Şirvan dastan mühiti üçün səciyyəvidir: Azərbaycan xalq dastanları; Azərbaycan xalq dastanlarının Şirvan variantı; Şirvan aşıq mühitində formalaşmış dastanlar; Aşıq Mirzə Bilalın bağladığı dastanlar. Tədqiqatçının topladığı xatirələrdən bəlli olur ki, Aşıq Mirzə Bilal el məclislərində meydan suladığı qırx il müddətində Azərbaycan dastanlarından əsasən, aşağıdakıları ifa edərmiş: “Qurbani”, “Abbas və Gülgəz”, “Tahir və Zöhrə”, “Əsli və Kərəm”, “Leyli və Məcnun”, “Seyfəlmülk”, “Koroğlu”, “Məsum və Diləfruz”, “Seydi və Pəri”, “Aşıq Qərib”, “Şah İsmayıl”, “Valeh və Zərnigar”, “Alıxan-Pəri”, “Novruz”, “Əmrah” (6, s.144).

Şirvan aşıq mühitinin yaradıcı, ustad sənətkarları vaxtilə Azərbaycan dastanlarının bir çoxunun variantını yarada bilmişlər ki, bu variantlarda dastanın əsas ideya və məzmunu saxlanılsa da, aşıqlar əsərə müəyyən hadisələr, yardımçı süjetlər, şeirlər əlavə etməklə dəyişikliklər yaratmışlar. Azərbaycan dastanlarının improvizə edilməsi, variantlaşmasında da Aşıq Bilalın xüsusi xidmətləri olmuşdur. Atası Aşıq Bilalın dastan repertuarını ağlı söz kəsəndən indiyə kimi yaddaşında saxlayan Şəfi kişi bu barədə deyir: Atam ustadı Aşıq İbrahimdən və eləcə də müasirləri olmuş başqa aşıqlardan Azərbaycan dastanlarının hamısını yerli-yerində öyrənmiş və şagirdlərinə də mənimsədə bilmişdir. Anamın dediyinə görə, atam öyrəndiyi dastanların hamısını ərəb əlifbası ilə dəftərlərə yazıb saxlamışdı. Bəzən şagirdləri həmin dəftərləri aparıb üzünü köçürərdi. O, dəftərlər də 37-ci il faciəsinin qurbanı oldu. Bir çox Azərbaycan dastanlarının Şirvan variantını da atam yaratmışdı. Atam məlum dastanları elə dəyişər, ona elə əlavələr edərdi ki, dastan daha da şirinləşər, dinləyiciləri daha çox özünə valeh edərdi. Məsələn, məlum “Alıxan və Pərixanım” və ya Şirvanda tanınmış adı ilə desək “Vanlı Alıxan” dastanını da atam variantlaşdırmışdı (6, s.144-145). Amma bunu da vurğulamaq lazımdır ki, Aşıq Bilal dastanlara əlavələri sənətin tələblərinə, məntiqinə uyğun şəkildə və

yerli-yerində etməklə əsərin məzmununu, sanbalını daha da gücləndirmişdir. Bu baxımdan Aşıq Bilalın variantlaşdırdığı dastanların əhəmiyyətini bütün ustadlar dilə gətirmişlər.

Seyfəddin Qəniyevə görə Azərbaycan dastanlarının Şirvan variantlarından aşağıdakılar Aşıq Bilal repertuarının canı olmuşdur: "Qurbani", "Xəstə Qasım", "Abbas-Gülgəz", "Şahzadə Əbülfəz", "Tahir-Zöhrə", "Seydi və Pəri", "Əmrah və Səlmi", "Aşıq Qərib", "Valeh", "Novruz və Qəndab", "Dilsuz-Xəzangül", "Nigar və Mahmud", "Vanlı Alıxan". Ümumiyyətlə isə, Aşıq Bilalın repertuarında olmuş klassik Şirvan dastanları bunlar hesab olunur: "Zəncanlı Qurbani, "Xəstə Qasım", "Kərəmin Beşdaş səfəri", "Yetim Aydın", "Ordubadlı Kərim", "Adgözəl və Aslan şah", "Koroğlunun Şirvan səfəri", "Şirvanlı Qəhrəman şah", "Şahzadə Qasım", "Küçə Rza", "Barıday Soltan və Kövsər xanım", "Mustafa və Sənəm xanım", "Miskin Baba və Nigar xanım". Aşıq Mirzə Bilalın bağladığı dastanlara gəldikdə isə bunlar aşağıdakılardır: "Səfiyyə və Ziyad", "Aşıq Bilal və Soltanxanım", "Yetim Soltan", "Mustafa xan", "Aşıq İbrahim və Pəri", "Aşıq Bilal və Sənəm", "Həzrət Baba" (6, s.147-148).

Mənbələrin təsdiqlədiyi bu faktlardan bir daha aydın olur ki, Aşıq Mirzə Bilalın repertuarı əvəzsiz xəzinə imiş. Bunlar ustad aşığın ölümündən təxminən 45-50 il sonra Seyfəddin Qəniyev kimi təəssübkeş araşdırıcıların yaddaşlardan əldə etdikləri nümunələrdir. Şübhəsiz ki, Aşıq Bilalın XIX əsrin sonu, XX əsrin 30-cu illərinə kimi topladığı, söylədiyi, yazıya aldığı bu irs bolşeviklər tərəfindən məhv edilməsəydi, onda şübhəsiz ki, Şirvan aşıq mühiti daha çox qazanardı. Əfsuslar olsun ki, Aşıq Bilalın faciəli ölümü, arxivinin məhv edilməsi ilə Şirvan aşıq mühiti çox şey itirdi. Günümüzə gəlib çıxan və Şirvan aşıq mühiti üçün xarakterik olan dastanlar isə bu irsin yalnız bir qismidir.

Şirvan aşıq sənəti Azərbaycanın başqa bölgələrinin aşıq sənətindən öz çoxcəhətliliyi, inkişaf dinamikası ilə fərqlənir. "Burada aşıq sənətinin heç bir elementi ilkin bəsitliyə malik deyildir. Ona qarşılıqlı təsirlər olmuş, əzəli xallarının üstünə xal, ilkin güllərinin üstünə gül, başlanğıc cizgilərinin üstünə cizgi gəlmişdir. Bu da Şirvan aşıq sənətini Azərbaycan aşıq sənətinin unikal hadisəsinə çevirmişdir. Elə bu səbəbdəndir ki, Şirvan aşıqlarının sənəti özündə klassik musiqini, xalq musiqisinin çoxçalarlı quruluşunu əks etdirir" (7, s.52-53). Bu baxımdan, ustadların, o cümlədən Aşıq Bilalın sənətkarlıq irsini öyrənmək, təbliğ etmək və gələcək nəsillərə daha etibarlı şəkildə təqdim etmək, xüsusilə qələm sahibləri, ziyalılar, elm, mədəniyyət xadimləri və musiqiçilərin vəzifələrindəndir. Çünki XX əsrin qırxıncı illərindən sonra Azərbaycanın müxtəlif bölgələrində, xüsusilə də Şirvanda ulu aşıq sənətinə məftun olanlar, bu sənəti öyrənməyə səy göstərənlər, Mirzə Bilalın səsi-avazı, yerişi-duruşu, danışığı-nitqindən bəhrələnərək məclislərə qədəm qoymuşlar. Mirzə Bilalın şagirdləri də ustadları kimi uzun illər Şirvan elini qarış-qarış gəzmiş,

toyxanalarda meydan sulamış, festivallardakı uğurlu çıxışları təltiflərə layiq görülmüş, konsertlərdə alqışlarla qarşılanmış, bir sözlə, Şirvan aşıq mühitinin adət-ənənələrini gənclərə sevdirmiş və mənimsətmişlər.

**Ədəbiyyat:**


1. Axundova K. Aşıq Şamil Piriyev (Metodiki material). Bakı, 1988, 36 s.
2. Bahadurqızı Y. Vurğunam nəğməyə, saza. Bakı: Çaşıoğlu, 2000, 134 s.
3. Hüseynov R. Sənsiz və rəngsiz dünyanın adamı. “Qobustan”, № 1, Bakı, 1985, s. 13.
4. Qəniyev S. Şirvan aşıqları, I hissə. Bakı: N.Tusi adına ADPU-nun nəşriyyatı, 1997, 198 s.
5. Qəniyev S. Şirvan folklor mühiti. Bakı: Ozan, 1997, 260 s.
6. Qəniyev S. Şirvanlı Aşıq Mirzə Bilal. Bakı: Nurlan, 2003, 308 s.
7. Qəniyev S. Şirvanlı Aşıq Hacılı. Bakı: Nurlan, 2006, 216 s.
8. Mirzə A. Şirvan aşıq yaradıcılığı (təşəkkülü və inkişaf tarixindən). Bakı: Elm, 2007, 300 s.
9. Mürsəlov M. Şirvanlı Aşıq Mirzə Bilalın sənətkarlığı barədə bəzi qeydlər. AŞXƏDT, VI c., Bakı: Elm, 1981, s. 160-161.
10. Nəbiyev A. Azərbaycan aşıq məktəbləri. Bakı: Nurlan, 2004, 312 s.


## Творчество и особенности искусства Ашуг Мирза Билала, одного из мастеров Ширванского ашугского искусства

**Резюме**

В этой статье повествуется о характерных особенностях ашугского искусства Ширвана и творческого наследия мастеров-ашугов. Обращается особое внимание на жизнь, творчество и особенности искусства воспитавшего плеяду выдающихся учеников Ашуг Мирза Билала. Здесь затрагиваются творческие связи современного мастера, можно сказать педагога всех ашугов Ширвана и выдающегося ханенде Мирза Мамедгасана. Отмечаются этические правила поведения присущие Ашуг Мирза Билалу, такие как культура исполнения, правила поведения на музыкальных мероприятиях, внимательное отношение к зрителю. В статье рассказывается о его творческом отношении к исполнению дастанов. Раскрываются степени мастерства в культуре исполнения дастанов Ашуг Мирза Билала. Все эти аспекты обосновывают важность изучения творческого наследия мастера.

**Ключевые слова:** Азербайджан, ашугское искусство, ашугская среда Ширвана, Ашуг Мирза Билал, исполнительская культура, саз.

## Creativity and art features of Ashug Mirza Bilal who is one of the masters of Shirvan ashug art

**Summary**

The article argues about characteristic features of Shirvan ashug art and creative heritage of master craftsmen of this Ashug environment. Particularly, this article focuses on the life of Ashuq Mirza Bilal who taught many students, his creativity, and his creativity features. Mirza Bilal is considered as the master of almost all modern Shirvan ashugs and his master was Ashug Ibrahim and famous singer Mirza Mammadhasan. It also concerns with the performance culture of Mirza Bilal, creativity skills such as attention to his listeners, his own abilities and other important behaviors. Apart from all these, his creative attitude to epos performance is observed in this article. Also creativity features of Mirza Bilal in the culture of epos performance are clarified in this article and summarizes with the importance of his creative heritage.

**Key words: Azerbaijani Ashug art, Shirvan Ashug environment, Ashug Mirza Bilal, performance culture, saz.**